# Əməyin səmərəli təşkilinin uşaqların ümumi inkişafına təsiri

**Sevil Cəfərova**
*ADPU-nun Ağcəbədi filialının baş müəllimi*

**Rəyçilər:** ped.ü.f.d., dos. P.M. Həsənova,
ped.ü.f.d., dos. S.S. Tağıyeva

**Açar sözlər:** əməyin təşkili, intellektual inkişaf, ümumi inkişaf, əməksevərlik, humanizm
**Ключевые слова:** организация труда, интеллектуальное развитие, общее развитие, труд, гуманизм
**Key words:** labor organization, intellectual development, general development, labor, humanism

Müasir dövr hər bir cəmiyyət üzvündən təkcə intellektual qabiliyyətli insan olmaqla yanaşı həm də yaşamaq üçün mühüm olan fiziki, sosial, davranış və əmək vərdişlərinin inkişafa malik olmağı da tələb edir. Üstünlük biliklərin qazanılmasına deyil, uşaqların təşəbbüskarlığının inkişafına, sosial kompetensiyaların inkişafına verilir.

Məktəbəqədər təhsil müəssisələrinin işi uşaqları həyatda uğur qazanmağa, müxtəlif fəaliyyət növlərinin vərdişlərini inkişaf etdirməyə, bilik qazanmağa səy göstərməyi formalaşdırmaq və müstəqil düşüncə tərzinə yiyələnməyə istiqamətlənir. Uşaqlar çevik vərdişlər əldə etməli, intellektual və nitq inkişafının müəyyən səviyyəsinə çatmalı, şəkil çəkmək və təsviri fəaliyyətin başqa növlərini mənimsəməlidirlər. Tərbiyəçinin vəzifəsi inkişafetdirici mühit yaratmaq, bu mühitdə hər bir uşağın inkişafına dəstək vermək, uşaqların davranış və psixologiyasını öyrənmək və asudə vaxtlarda müstəqil olaraq əmək fəaliyyətini təşkil etməkdən ibarətdir.

Məktəbəqədər təhsil müəssisələrində əmək tərbiyəsi uşaqları əmək fəaliyyətinə müsbət münasibət formalaşdıran, onlarda işləməyə arzu və istək yaradan çox vacib bir prosesdir. Daha dəqiq desək, "...məktəbəqədər təhsilin məqsədi uşağın fiziki, psixi, emosional, sosial və intellektual potensialının inkişafı üçün şərait yaratmaq, uşaqların sadə əmək vərdişlərinə yiyələnməsini təmin etmək, uşaqlarda məntiqi və yaradıcı təfəkkürün ilkin elementlərini formalaşdırmaq və istedadlı uşaqların erkən yaşdan üzə çıxarılmasını təmin etməkdən ibarətdir" (3).

Məhz əmək prosesdə uşaqda əxlaqi keyfiyyətlər də inkişaf edir. Əmək tərbiyəsi prosesində uşaqlar fiziki cəhətdən möhkəmlənir, əqli qabiliyyətlər, o cümlədən, müxtəlif müqayisələr, təhlillər və ümumiləşmələr etməklə təfəkkür də inkişaf edir. Əməklə məşğul olarkən məktəbəqədər yaşlı uşaqlar müstəqil iş görməyi öyrənir, gördüyü işə məsuliyyətlə yanaşır və təşəbbüskarlıq nümayiş etdirir.

V.A.Suxomlinski göstərirdi: "Uşaq qəlbi insanlar üçün gözəllik və sevinc yaratmaq üçün həssasdır — ancaq gərək bu çağırışın ardınca əmək gəlsin, əgər uşaq hiss edirsə ki, onun yanında insanlar var və öz hərəkəti ilə sevinc gətirir, o ən kiçik yaşlarından öz arzularını insanların mənafeyinə uyğunlaşdırmağı öyrənir. Bu isə ünsiyyət və xeyirxahlıq tərbiyəsində çox vacibdir. O kəs ki, öz arzularının həddini bilmir, heç vaxt yaxşı vətəndaş olmayacaq" (4 ).

Əmək tərbiyəsinin əsas konsepsiyası uşaqları müstəqil həyata hazırlamaqdan, başqalarına kömək etmək arzusunun formalaşdırılmasından ibarətdir. Əmək tərbiyəsinin təşkilində

uşaqların yaş dövrlərini nəzərə almaq zəruridir. Çünki onlara hansı fəaliyyət növünün təqdim edilməsi məhz bu amildən asılıdır.

Əmək tərbiyəsi — insanlarda ümumi əmək bilik və bacarıqlarının inkişafına, əməyə və əmək məhsullarına məsuliyyətli yanaşmanın psixoloji hazırlığına, şüurlu surətdə gələcək peşə seçiminə yönəlmiş tərbiyəçi və tərbiyə alanların birgə fəliyyəti prosesidir.

Uşaqlar yalnız eşitmək və deyilən kimi hərəkət etmək deyil, fikir yürütmək, faktlar axtarmaq, səbəb-nəticə əlaqələrini soruşmaq, izah etmək və qurmaq, sadə tədqiqatlar aparmaq, həmyaşıdları ilə ünsiyyət qurmaq, fəaliyyəti marağına görə seçmək və sərbəst davranmaq hüquqlarına malikdirlər (2, 37) .

Əmək uşağı həyatının bütün inkişafı gedişində izləyir. Necə deyərlər, onu böyüdür, tərbiyə edir, mətinləşdirir. Özünəxidmət əmək növündə iştirakla həyata atılan iki yaşlı uşaq təbiətdə əmək, təsərrüfat-məişət əməyində iştirak edərək müstəqillik tələb edən əl əməyini həyata keçirməyi bacarmaq kimi bütöv bir inkişaf yolu keçir ki, bu inkişaf da onun hərtərəfli inkişafı deməkdir.

Uşaqların əməyə alışdırılmasında müəllim-tərbiyəçinin uşaqlara verdiyi əmək tapşırıqlarının da böyük rolu vardır. Müntəzəm verilən əmək tapşırıqları uşaqlarda yüksək əmək vərdişləri formalaşdırır, təkrarlanan əmək hərəkətləri uşaqda avadanlıqlarla səlist davranmaq, səliqəliliyə meyllilik, məsuliyyət, işi axıra çatdırmağa çalışmaq kimi bacarıqlar formalaşdırır. Sonralar isə bu bacarıqlar xarakter xüsusiyyətlərinə çevrilir.

**Məqalənin aktuallığı.** Hazırda müstəqil dövlətimizə yüksək əqli keyfiyyətlərlə yanaşı, həyati bacarıqlara sahib vətəndaş tərbiyəsi günümüzün aktual problemlərindəndir. Belə vətəndaşların tərbiyəsinə məhz kiçik yaşlarından başlamaq tələb olunur.

**Məqalənin elmi yeniliyi.** Əməyin səmərəli təşkilinin uşaqların ümumi inkişafına təsirinin araşdırılması məktəbəqədər təhsil proqramının irəli sürdüyü müəyyən vəzifələrin həllinə təkan verəcəkdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən məktəbəqədər təhsil müəssisələrinin işçiləri, bu ixtisasda təhsil alan bakalavr və magistrlar faydalana bilərlər.

## Ədəbiyyat

1. Həsənova P.M. Məktəbəqədər müəssisələrdə əməyin təşkilinə müasir yanaşmalar: Metodik vəsait. Bakı: ADPU- nun nəşri, 2017.
2. B.Q.Neçayeva, R.S.Bure və b. Məktəbəqədər yaşlı uşağın əməkdə tərbiyəsi. Bakı, 1989.
3. Məktəbəqədər təhsilin kurikulumu. Bakı, 2012.
4. Suxomlinski V.A. Vətəndaşın doğulması. Bakı: Maarif, 1975.

**С. Джафарова**

## Влияние эффективной организации труда на общее развитие детей

## Резюме

Действительно, роль хорошо продуманного труда в общем развитии детей является незаменимой. Труд оказывает большое влияние на физическое, интеллектуальное,

моральное и эстетическое наслаждение ребенка. Потому что основная концепция детского труда состоит в том, чтобы подготовить детей к самостоятельной жизни и сформировать желание помогать другим. Важно учитывать возраст детей в организации труда.

**S. Jafarova**

## The role of effective organizational work in the overall development of children

## Summary

It is noteworthy that the role of a well-educated worker in the general development of children is indefinite. Trud reflects the virtue of physical, intellectual, moral, and aesthetic pleasure in the rebuild. The main concept is that the children's work is in the volume to prepare the children for self-sacrificing lifestyle and to help shape the other. It is important to train children in the organization of work.

**Redaksiyaya daxil olub:** 19.11.2018